KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 11 (255) 24-30 Mart, Adar, sal 2014
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiymәti: Hêjaye: 40 qәpik


# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR!



Səh. 2

**İlham Əliyev Haaqada keçirilən III Nüvə Təhlükəsizliyi Sammitində çıxış etmişdir**



Səh. 10

**Barzanî bi helkefta bidarvekirina pêşewa Qazî peyamek belav kir**



Səh. 9

**Yekitiya Ewropa nûnertiya xwe li Hewlêr vedike**



Səh.3

**BDPê li gellek bajar û navçeyan serkeftina xwe pîroz kir**



Səh.7

**Kəlbəcərin işğalından 21 il ötdü**




Səh.8

**Partiyên Başûr li ser hilbijartinên herêmî yên Tirkiyê çi dibêjin**



Səh.6

**1918- ci ildə birləşmiş bolşevik-daşnak silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi Soyqırımı**

## Kürdistan'da yeni süreç Səh. 11

## Kürtlerin özgürlükle imtihanı ve yerel seçimler Səh. 13

## "ДПК и РПК должны примириться в интересах курдов" Səh. 14

## Dersim'de BDP zaferi Səh. 11

## Helebce û Enfal li Kongresa Amerîkayê Səh. 8

## Kırım Referandumu Kürdistan'a Örnek Olur mu? Səh. 13



Səh. 4

**Erməni kürd münasibətləri. Kürdlərin ermənilər tərəfindən qətlə yetrilməsi faktları**



Səh. 15

**Курды Казахстана осуждают международный терроризм и насилие**



Səh. 15

**Родственники жертв Халабджи подают в суд на германские компании**



Səh.3

## TƏ-ZADLAR

# İlham Əliyev Haaqada keçirilən III Nüvə Təhlükəsizliyi Sammitində çıxış etmişdir

Niderland Krallığının Haaqa şəhərində keçirilən III Nüvə Təhlükəsizliyi Sammiti öz işini davam etdirmişdir.

Prezident İlham Əliyev Sammitdə çıxış etmişdir. Sammitin ikinci iş günü nüvə təhlükəsizliyi sahəsində milli və beynəlxalq tədbirlərin əhəmiyyətinə həsr olundu. Bu sahədə dünya ölkələri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi vurğulandı. Dünya liderləri bu Zirvə görüşündə də nüvə terrorizminin qarşısının alınması üzrə uzunmüddətli və səmərəli beynəlxalq əməkdaşlıq məsələsini gündəmdə saxladılar. Onlar nüvə terrorizmi təhlükəsinin hələ də mövcud olduğunu bildirərək, bu təhlükənin qarşısının alınması üçün tədbirlərin davam etdirilməsinin vacibliyini önə çəkdilər. Sammitin plenar iclasında Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

Zirvə görüşü iştirakçılarını salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammiti qəbul etdiyinə və göstərdiyi qonaqpərvərliyə görə Niderland hökumətinə minnətdarlığını bildirdi. Nüvə təhlükəsizliyi tədbirlərinin gücləndirilməsində Beynəlxalq Atom Enerjisi Agentliyinin mühüm rolundan danışan Azərbaycan dövlətinin başçısı ölkəmizin nüvə təhlükəsizliyinin bir çox aspektləri üzrə bu Agentliklə fəal əməkdaşlıq etdiyini və Azərbaycanın iştirakçı dövlət olduğu Nüvə Terrorçuluğuna qarşı Mübarizə üzrə Qlobal Təşəbbüsün nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində Birləşmiş Millətlər Təşkilatının göstərdiyi səyləri dəstəklədiyini, bu yaxınlarda Azərbaycanın nüvə, kimyəvi və bioloji silahların və onların çatdırılma vasitələrinin yayılmaması sahəsində gördüyü növbəti tədbirlər haqqında yeni hesabatını Birləşmiş Millətlər Təşkilatına təqdim etdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, 2012-ci ildə BMT-nin terrorçuluq, o cümlədən nüvə terrorçuluğu məsələlərinə aid müzakirələr təşkil etmişdir. Nüvə və radioaktiv təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər görülməsinin vacibliyinə toxunan Prezident İlham Əliyev Azərbaycanın nüvə materiallarının qeyri-qanuni dövriyyəsində tranzit marşrutu kimi ölkənin ərazisindən istifadənin qarşısını almaq üçün böyük səylər göstərdiyini, bu



məqsədlə beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edərək beynəlxalq standartlara uyğun güclü qanunvericiliyə əsaslanan əhatəli milli ixraca nəzarət sistemini formalaşdırdığını vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, bu yaxınlarda qəbul edilmiş Azərbaycanın ilk "Dəniz Təhlükəsizliyi Strategiyası"nda nüvə və digər kütləvi qırğın silahlarının və onların çatdırılma vasitələrinin, eləcə də aidiyyati materialların yayılması dəniz təhlükəsizliyinə ən böyük hədələrdən biri kimi müəyyən edilir.




Prezident İlham Əliyev təəssüflə qeyd etdi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən davam edən işğalı və azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti səbəbindən ölkəmizin öz sərhədlərinin müəyyən hissəsinə lazımi səviyyədə nəzarət etmək imkanı yoxdur.

Bu cür vəziyyət transmilli mütəşəkkil cinayətkarlığa, nüvə və radioaktiv materialların qeyri-qanuni daşınmasına, həmçinin radioaktiv tullantı materiallarını basdırmaqla Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistan tərəfindən zəhərləndirilməsinə şərait yaradır.

Daha sonra Azərbaycan Prezidenti Ermənistanın təxminən 40 il əvvəl tikilmiş və köhnəlmiş Atom Elektrik Stansiyasının yaratdığı təhlükədən danışaraq dedi ki, bu elektrostansiya bütün region və yaxın qonşular üçün böyük təhdiddir. Oradakı hər hansı qəzanın nəticələri faciəli olacaqdır. Lakin beynəlxalq narahatlığı aradan qaldırmaq və bu elektrostansiyanı bağlamaq əvəzinə, Ermənistan həmin Atom Elektrik Stansiyasının fəaliyyətini 2026-cı ilə qədər davam etdirmək qərarına gəlib, baxmayaraq ki, o, yüksək seysmik zonada yerləşir və köhnəlmiş, olduqca təhlükəli texnologiyaya əsaslanır.

Azərbaycanın regionda təhlükəsizliyin və sabitliyin qorunmasında olduqca müsbət rol oynadığını deyən Prezident İlham Əliyev bildirdi ki, biz regionda və bütün dünyada nüvə təhlükəsizliyinin gücləndirilməsinə aid məsələlər üzrə beynəlxalq təşkilatlar və tərəfdaşlarımızla apardığımız əməkdaşlığın davam etdirilməsi, nüvə və radioaktiv materialların qeyri-qanuni dövriyyəsindən irəli gələn hədələrin azaldılması işinə sadiqik. Çıxışının sonunda Azərbaycan dövlətinin başçısı Birləşmiş Millətlər Təşkilatı başda olmaqla beynəlxalq ictimaiyyətin davamlı səyləri ilə bütün çağırışların həll ediləcəyinə və daha təhlükəsiz dünya qurulacağına əminliyini ifadə etdi. Sonra zirvə görüşünün "Nüvə təhlükəsizliyi sammitinin gələcəyi" mövzusunda qeyri-rəsmi iclası oldu.

Azərbaycan Prezidenti İlham Əliyev sammit çərçivəsində Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron və İtaliyanın Baş naziri Matteo Rentsi ilə görüşdü. Söhbət zamanı Azərbaycan ilə bu ölkələr arasında ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Zirvə görüşü zamanı Türkiyə Prezidenti Abdullah Güllə də görüşdü. Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin indiki vəziyyəti və perspektivi ilə bağlı müzakirələr aparıldı. Zirvə görüşünün yekununda liderlər birgə foto çəkdirdilər. Sonra dövlət və hökumət başçılarının şərəfinə işçi nahar verildi. Zirvə görüşünün sonunda yekun Kommünike qəbul olundu.

## İlham Əliyev Haaqada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür



Prezident İlham Əliyev Haaqada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukiya Amano ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında səmərəli əməkdaşlığın qurulduğu, ölkəmizin nüvə təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olduğu bildirildi. Yukiya Amano əməkdaşlığın daha da inkişaf etdirilməsi və radioaktiv tullantıların təmizlənməsi sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi. O, bildirdi ki, Azərbaycanın nüvə təhlükəsizliyi ilə bağlı keçirilən tədbirlərdə və zirvə görüşlərində fəal iştirak etməsi məmnunluq doğurur. Azərbaycan Prezidenti İlham Əliyev nüvə təhlükəsizliyinin ölkəmiz, region və dünya üçün əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı Ermənistanda seysmik zonada yerləşən və artıq köhnələrək müasir standartlara cavab verməyən Atom Elektrik Stansiyasının fəaliyyətinin bütün region üçün ciddi təhlükə doğurduğunu diqqətə çatdırdı.

## İlham Əliyev Haaqada ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşmüşdür

Prezident İlham Əliyev Haaqada ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Ceyms Uorlik (ABŞ), Jak For (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşmüşdür.



Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Niderland Krallığı Senatının üzvü Rene Van Der Linden ilə görüşmüşdür

Prezident İlham Əliyev Haaqada Niderland Krallığı Senatının üzvü Rene Van Der Linden ilə görüşmüşdür. Görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.



Ölkələrimizin siyasi, iqtisadi, biznes və digər sahələrdə uğurlu əməkdaşlıq qurduqları vurğulandı. Azərbaycan ilə Niderlandın təhsil və elm sahələrində də yaxşı əməkdaşlıq etdikləri bildirildi. Söhbət zamanı Azərbaycanın "ADA" Universiteti ilə Niderlandın Maastrixt Universiteti arasında əlaqələrin inkişafından razılıq ifadə olundu.

***president.az***

# Keçmiş nazir: "Məni işdən Öcalan çıxartdırıb"

Türkiyənin keçmiş daxili işlər naziri Nail Şahin mühüm açıqlamalar verib. Avropa.info-nun Türkiyə mətbuatına istinadən məlumatına görə, İstanbul Kəşfiyyat Şöbəsindən məsul sabiq polis rəisi müavini Əli Fuad Yılmazərin iddiası böyük rezonans doğurmuşdu. Yılmazər iddia edirdi ki, eks daxili işlər nazirini işdən Abdullah Öcalan çıxartdırıb. Eks nazir və Ordu millət vəkili İdris Naim iddiaya cavab verib: "Mən də belə düşünürəm. Məni işdən Öcalan çıxartdırıb. Onsuz da hamı bunu bilir. Bu terroristlərin başçısı Öcalanın özüdür, yoxsa onun adından hərəkət edən cəmiyyətdir? Bu barədə fərqli adlar və səmtlər göstərilə bilər".



# Türkiyədə qanlı seçki: 8 nəfər ölüb, 30-dan artıq şəxs yaralanıb

Türkiyədə bu gün keçirilən bələdiyyə seçkiləri zamanı müxtəlif bölgələrdə insidentlər olub. APA-nın Türkiyə KİV-nə istinadən verdiyi xəbərə görə, Türkiyənin Şanlıurfa, Hatay və Qaziantep rayonlarında bələdiyyə seçkiləri zamanı qan tökülüb, ölən və yaralananlar var. Hilvanda muxtar (kənd icra nümayəndəsi) seçkiləri zamanı 4 nəfər ölüb, 5 nəfər isə yaralanıb. Hatayda isə 4 nəfər ölüb, 9 nəfər yaralanıb. Qaziantepdə isə bir narkotik istifadəçisi 4 nəferi bıçaqlayıb. Şanlıurfanın Ciftlik kəndində isə muxtar seçkiləri zamanı baş vermiş insidentdə 9 nəfər yaralanıb. Kənddə müxtarlığa iddialı olan Ersöz və Öztürk soyadlı namizdələrin nəsilləri arasındakı mübahisə qanlı davaya çevrilib. Şanlıurfanın digər qəsəbəsində də muxtar seçkiləri zamanı biri polis olmaqla 3 nəfər yaralanıb, 4 nəfər isə saxlanılıb. Balıkəsirdə isə AKP-nin seçki ilə bağlı hazırlanmış avtobusunun qapısından yıxılan 53 yaşlı Emel İnceoğlu dünyasını dəyişib.



# TƏ-ZADLAR



Namiq Kamil Kürdoğlu

Həyat qəribəliklərlə dolu olsada,bəzən bu qəribəliklər içərisində təzadlar adamı lap çaş-baş salır.Bilmirsən gördüyünə inanasan, ya eşitdiyinə? Hətta hərdən özünün özünə inanmağın gəlmir. Desələr ki, butulkadan cin çıxıb inanaram, desələr ki, afrikada uçan boşqab hazırlayılbar bunada inanaram. Amma məsələ bundadır ki, deyirlər atası, anası, babaları, nənələri, əmiləri, dayıları, əsli, nəcabəti, zatı-kökü kürd olan birinin sən demə kimisə Kərkük türküyümüş. Həm də bunu utanmaz-utanmaz adamın özü deyir. Bütün zatın kürd ola özünə turksoy deyəsən, adam dəli olmasın nə olsun? Burda artıq təzaddan deyil tə-zadlardan danışmayasan neyləyəsən.?

Sosial şəbəkələrin birində bir qardaş status yazıb: " Talışlara baxmayın, talışlar sakit millətdi. Dövlət kürdlərə bələddir, küdlər sakit millət deyil. Ona görə də onları televiziyaya zada buraxmırlar" Düzü elə bildim bu statusu yazan talış qardaşımızdı. Amma biraz danışdım, deyir qardaş mən talış deyiləm ki, kürdəm. Buyurun bu təzaddı ya tə-zad?

Bildiyimiz kimi, hər bir məkanın, yerin zamanla bağlı, həmin bölgədə yaşayan xalqların dilinə uyğun etnoqrafik adları və toponimləri formalaşır, yaranır bu təbiidir. Bu toponim adlarsa qədim köklərə söykənir və hər birinin məntiqli izahı olur. Bizim qartallar diyarı Laçında Kürdhacı kədi var. Bu adın hardan və necə əmlə gəlməsində bir cox müəllif öz araşdırmalarında ətraflı izahat verirlər. Elə sıradan bir azərbaycanlı olaraq, azərbaycan dilində bu sözün Kürd və Hacı sözlərindən törəndiyini hər bir hərf tanıyan ibtidai sinif şagirdi də deyə bilər. Kor- kor, gör-gör. Eləcə də bu məhz kürd sözü ilə başlayan digər adlara aiddir. Amma deyəndə ki, bu türk adıdı və adı Qurdhacıdı buna nə deyəsən? Bu Qurdhacı nə imiş azərbaycan və ya türk dilində, olmayaydı Kürd Hacı,olaydı elə Türk Hacı bax bunu bilən yoxdu. Deyənlər də, yazanlar da, əlifi gilif yox, blif oxuyub yazan "çox bilmişlərdir". Artıq buna təzad deyil,tə-zad demək lazımdır.

Hələ yaxın tariximizə baxsaq 1932-ci ildə Azərbaycan Dövlət Tədqiqat İnstitutu ,A.Bquşpanın müəllifliyi ilə, "Qızıl Şərq" mətbəsində, 2000 tirajla,92 səhifədən ibarət "Azərbaycan Kürdləri" adlı kitab nəşr edib. Həmin kitabda, Laçın rayonunun Bozlu kəndinin əhali sayi,milliyyəti, tayfalarına qədər göstərilib. Belə ki,həmin dövrdə Laçın rayon Bozlu kəndi ("Azərbaycan Kürdləri" A.Buqşpan 1932 səh 34 və 62) Şərəfli və Qraflı tayfalarından, 71 təsərüffatdan və 350 nəfər sakindən ibarət olub ki,bu 71 təsərüffat və 350 sakinin hamısıda kürd dilli olub.Mənim də ata tərəfim Qraflı,ana tərəfim Şərəfli tayfasındandır.

| | | | | |
|---|---|---|---|---|
| Бозлу . . . . | Бозлу<br>Камаллы<br>Калача<br>Черахлы | 350<br>405<br>·69<br>191 | 350<br>405<br>69<br>191 | Шерафлы, Кр.<br>Шерафлы |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3. Бозлу . . . | 71 | 71 | — | — | 1 |
| 4. Камаллы . . | 107 | 107 | — | — | |
| 5. Калача . . . | 16 | 16 | — | — | |
| 6. Черахлы . . | 44 | 44 | — | — | |

Eyni zamanda bunun Qalaçasıda, Kamallısıda, Minkəndi də və sairə. Amma 2014-cü ildə kimsə deyəndəki, mən Bozludanam, Qalaçalıyam, Kamallılıyam, Çıraqlılıyam amma kürd deyiləm və bizim kədnddə hec yerli dibli kürd olmayıb, buna tə-zad deməyib təzadmı deyəsən?

Bildiyimiz kimi sovet hakimiyyəti dönəmində bir çox millətlər kimi, biz də qadağalarla üz-üzə qalmışdıq. Doğma dilimizdə olan məktəblərimiz bağlandı, milli kimliyimiz əlimizdən alındı. Hətta öz dilimizdə danşmağımız belə yasaqlandı. Amma indi sivil, demokratik, müstəqil bir ölkə vətəndaşlarıyıq. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin 3-cü bəndinə əsasən Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli mənşəyi, dini, dili, cinsi, əqidəsi, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırılması qadağandır.

Eyni zamanda Konstitusiyanın 44-cü maddəsi Milli mənsubiyyət hüququ haqqındadır.

I. Hər kəs milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır.

II. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.

45-ci maddə isə Ana dilindən istifadə hüququndan bəhs edir.

I. Hər kəs ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır.

II. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Gəlin baxaq ibtidai sinif həcmində hər bir milli azlığın təhsil hüququ var və demək olar ki, Laçın rayonunun eləcədə digər Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl və sairə rayonlarının hər bir kürd kəndinin orta məktəblərində hazırda kürd dili fənni saatları mövcüddür. Amma tədris olunurmu? Ancaq kimə isə bu barədə məlumat verilirmi? Materiallar varmı? Əvəzində məktəb direktorları belə bir fənnin olduğunu ciddi-ciddi gizləyir. Baxmayaraq ki, özü kürddü, zatı kürddü. Bələ ondadır ki, buna əslən kürd olan valideyinlər də biganə qalır.Buna tə-zad deməyəsən təzadmı deyəsən? Bu yaxınlarda, Laçın rayon İcra Hakimiyyətinə, milli kimliyimin yuxarıda qeyd etdiyim sovet qadağaları səbəbindən düzgün qeydə alınmadığını və bu səbəbdən də sənədlərimin dəyişdirilərək milli kimliyimin KÜRD olmasının qeydə alnması barədə müraciət etdim. Məlumat üçün bildirim ki, hal-hazırda Azərbaycan Respublikası vətəndaşının "Şəxsiyyət Vəsiqəsi" ndə milli kimlik bölümü yoxdur,ancaq "Doğum Haqqında Şəhadətnamə","Nigahın Qeydiyyatı Şəhadətnaməsi"və "Hərbi Bilet"də bu barədə xüsusi qrafa mövcuddur.

Müraciətimə cavab olaraq Lacın Rayon İcra Hakimiyyəti, erməni işğalı səbəbindən, rayon arxivinin işğal olunmuş ərazidə qalmasını və qanunla nəzərədə tutulduğu kimi valideyinlərimdən hər hansı birinin milliyətinin kürd olması qeyd olunmadığından, mənim də milli kimliyimin dəyiş- dirilməsinə səlahiyyətləri olmadığını, hüquqlarımın bərpası üçün isə İnzibati Məhkəməyə müraciət etməmin lazım olduğunu bildirmişdilər. İnzibati Məhkəməyə ərizə ilə müraciət etməzdən öncə, bir hüquq məsləhətçisinə müraciət etdim. Lakin cavab məni cox təəcübləndirdi. Məsləhətçi: bəlkə sən səhf fikirləşirsən birazda düşünəsən bu sənin nəyinə lazımdı? Mən də kürdəm nə olsun,gərək sənədin ola,deyirsə buna tə-zad deməyəsən nə deyəsən?

Çox təssüflənirəm ki, bu tə-zadlar hər yerdə adamı qarabaqara izləyir. Kürdsən kürd ol da, neyləyirsən musiqini, neyləyirsən dilini, neyləyirsən adətini, neyləyirsən ən-ənəni, nəyinə lazım kürdlərin bayramı, nə işın var kürdlərin yanında kimi suallar verən adamlara bir cavabım olacaq. Toylarınızda kürd govəndindən-yallısından başqa ərəb, rus, turk, firəng, ingilis nə bilim daha kimləriin rəqslərini oynamağa, sifariş etməyə davam edin, gəlinlərinizidə Betxovenin, Motsartin simfoniyalarının sədaları ilə gətirin. Mənə fikir verməyin. Sizin təbirinizcə desəm, mən düzələn zad deyiləm. Mən Kürdəm,Qurmanciyəm şirin Kürd Dilim, Gövəndim var mənim.Mənim Səlahəddinim, Bədirxanım, kürd ana dilimdə yazan Cigərxunum, Əhmədə Xanim var. Mənim əslim-kököm, soyum-suyum var. Mənim tarixlərə meydan oxuyan tarixim, mənim tarixin özü kimi qədim,ulu Kürdüstan adlı vətənim var.

Siz öz işinizdə olun,sizin bu reallıq dediyiniz cəmiyyətinizdə TƏZAD olmaqdansa elə TƏZAD olsam daha yaxşıdı.

**Ez kurdim lo..**

*Ez bazê Rojhilat*
*Û cengoyê mêrxasim*
*Heeeeey dujmin,*
*bas bimezîne li dîrokê*
*Ez herdem xweş ziman im*
*Kurmanc*
*Soran*
*Goran û Zaza me*
*Ezim li birca belek*
*Û her serfiraz û sultan im*
*Ez Kurdim, jîyanim, jîyan*

# Haqqı deməkdən gözəl nə var?

Uca məğrur dağların əriməz qarları, sanki o dağlara ayrıca təkəbbür gətirir. Dağlar... qoca, əzəmətli, başı qarlı dağlar. Mərdliyin rəmzi. Qartalların məskəni dağlar... Bir də, bu dağlarda yaşayan qövm... Dağ adamı mərd olur deyirlər. Bəlkə də, dağların kibirindən, havasından, suyundan keçib ora insanına. Bəlkə də, daha nələr... Bir də o dağları məskən edən igidlər.

İgidlər oylağı. Ağbaba mahalı... SSRİ-nin imperialist təfəkküründə guya bir ata ilə bir oğul Dərələyəzdən qaçıblar məskunlaşıblar buralarda. Oğlan dəfələrcə, baba buralar dağlıq yerdir, qışı sərt olacaq, baxmayaraq ata elə buralarda yaşamağı qərara alır. Həmən ili qış çox sərt keçir və donvurmadan oğlan öz atasını itirir. Atasını ağlayan oğul hey ağı deyir.

-Ax baba, ax baba. Dedim axı, buralarda qış sərt olacaq.

Və bu minvalla Axbaba termini Ağbaba kəlməsinə dönüşüb. Yalnışlığa baxın. Bəlkə də o dövr insanı çox sadə və savadsız olub deyə, bunca ucuz bir yalan uydurmuşlar. O yalan nə qədər ucuz, nə qədər baha olsa da, yalandır. Yalan ayaq tutar, yeriməz....

Yaxşı bu tərəfi anladıq.Ya bu gün Türkiyə Cumhuriyyəti (T.C.) Qars ili, Ağbaba ilçəsi? Sərhədlərin o tərəfi? Güney-Doğu Anadolunun Ağbabası hanı? Ora nə ad verək? Qarsın torpaqlarıdır. Oralar bu gün Ermənistan adı altında faşist bir irqçi respublikanın torpaqlarıdır. Bəs Güney Doğu Anadolu? Ora haradır? Əhalisinin 90%-dən artıq bir əhalisi kürd olan Qars və Ağbabası...

Bir də bu Ağbabaya zaman-zaman olunan köçlər var... Anadolunun müxtəlif ilçələrindən müxtəlif zamanlarda axın edən insanlar zamanla assimlyasiya siyasətinin qurbanlarına çevriliblər. Bəziləri öz milliyyətini qoruyub saxlamaq üçün adlarının önündə Kürd kəlməsini də hallandırıblar. Məsələn Kürd Bayram, Kürd Yaşar, Kürd Söyün (Hüseyn) kimi adlandırılıblar.

O dönəm Anadolu odlu-alovlu dünya müharibəsi edərkən bizim bu günkü qəhrəmanımız Kürd Bayram daha 18 yaşına hələ çatmamışdı. Özündən yaşca balaca olan bir qardaşı və bir də bacısı var idi. Firat adında bir bacısı Mithat adında bir qardaşı. O dönəm qızları məktəbdə təhsil məhrumiyyəti sıxsa da, oğlanlar məcburi təhsil alırmış.Yaşı daha yetkinlik həddinə çatmayan Firatı el adəti ilə ərə veriblər. Evin son beşiyi Mito (Mithat) isə məktəbə getdiyi üçün assimlyasiya olunan kəslərdən olub. Adını Mahmud deyə dəyişiblər. Bir bacı bir qardaşının qayğıları ilə ömr sürən Bayram elə hey, məni sınırın ötəsində dəfn edin, deyib durdu. Heyf son arzusunu həyata keçirmək mümkün olmadı. Amma o kəs qəlblərdə həmişə elə Kürd Bayram kimi qalacaq.

Bu gün onun nəvə nəticələrinin heç biri öz keçmişini unutmasa da, assimlyasiya nəticəsində öz dillərini unutmuşlardandırlar. Yazımı uzadaraq assimlyasiyanın qurbanlarının əziyyətli lakin şərəfli həyatından da yazmaq çətin bir iş deyil. Haqqı deməkdən gözəl nə var? Bu gün istəyirəm ki, Ermənistanın yürütdüyü izolyasiya siyasəti nəticəsində milli mənsubiyyətlərini itirmək təhlükəsi ilə üz-üzə, burun-buruna qalan Yezidi Kürdlər də var. Zaman onların aqibətinin necə olduğunu göstərəcək!

***Emin Abbasov***

# Ermənі kürd münasibətləri. Kürdlərin ermənilər tərəfindən qətlə yetrilməsi faktları

**Müsahibimiz tanınmış tədqiqatçı jurnalist və yazıçı Nofəl Ədalətdir.**

***-Ermənilər kürdlərə hansı tarixlərdə soyqırım ediblər?***

-Bilirsiniz, erməni - kürd münaqişələrinin kökü ermənilərin Qafqaza köçürülməsi ilə başlayır. İstər indiki Ermənistan adlandırdığımız ərazi olsun, istər Qarabağda olsun, ermənilər azərbaycanlılara qarşı hansı vəhşiliyi ediblərsə, kürdlərə qarşı da o vəhşilikləri, cinayətləri ediblər. Daşnaksütyun partiyasının nizamnaməsində belə bir bənd var: "Harada kürd gördün, öldür". Bu açıq aydın göstərir ki, erməni üçün fərqi yoxdur bu kürddür, ya türkdür. Hələ ermənilərin öz ehtirafına görə 1897-ci ilin iyul ayının 25 dən 27 sinə kimi 3 gün ərzində 40 min, 1914-cü ilə kimi 600 min, 1920-ci ilə kimi isə 17 min kürd ermənilər tərəfindən qətlə yetrilmişdir Bu gün ermənilərin bayram kimi qeyd etdiyi "Xanasor" bayramı onların vəşicəsinə kürdlərin yaşadığı "Xanasor" kəndini böyükdən kiçiyə hər kəsi qətlə yetrilməsi ilə bağlıdır.

Cənubi Qafqazda o zamankı, əhalinin say tərkibinə baxsaq bu çox böyük rəqəmdir. Həmçinin onu da nəzərə alaq ki, bu ermənilərin öz etirafıdır. Deməк qətlə yetirilən azərbaycanlıların və kürdlərin sayı bundan dəfələrlə çoxdur. Ermənilər hansı tarixdə soyqırım etməyiblər ki? Nə vaxt erməni baş qaldırıb, o vaxt da çevrəsində olan bütün xalqlara qarşı soyqırım faktını həyata keçirib. 1905-06-cı və 1918-20-ci illərdə məlum deportasiyalar dövründə və ən nəhayət 1988-ci ildə Azərbaycana qarşı qaldırdıqları ərazi iddiaları zamanı da soyqırım faktlarına əl atıblar. 1988 ci ildə İrəvanda keçirilən mitinqdə o zamankı etnik təmizləmə siyasətinin ön isimlərindən olan Aşot Mancoryan kürdlərə qarşı kəskin çıxış edib və kürdlər bizim heç vaxt dostumuz olmayıb olmayacaq da, deyərək onların Ermənistandan qovulmasını tələb etdi. Təbii ki, bu, yüzlərlə bu kimi faktlardan biridir. A. Mançoryanın məlum çıxışından sonra indiki Ermənistan ərazisində yaşayan müsəlman kürdlər və ardınca yezidi kürdlər çıxarıldı, qətlə yetirildi, işgəncələrə məruz qaldı. Bu qudurğanlar hətta heç nədən çəkinmədən keçmiş Sovet məkanında tanınan həkim və yazıçı, indiki Ermənistan adlanıdırdığımız ölkənin ərazisində yaşayan kürdlərin lideri- Saidie İbo ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Xatırladım ki, 1988-ci ilə kimi indiki Ermənistan ərazisində 64 min kürd yaşayırdı ki, onların 18 mini elə 1988-ci ildə Ermənistandan çıxarıldı və bu prosses 1992-ci ilə kimi kütləvi şəkildə davam etdi. Məndə olan məlumatlara görə ermənilər kürdlərə qarşı ağlagəlməz cinayətlərə əl ataraq kürdləri Ermənistan adlandırdığımız ölkənin ərazisindən çıxmağa məcbur edirdilər. İnsanlar oda atılır, zorlanır, həbs edilir, var yoxları əllərindən alınırdı.

***-Bu soyqırımlar harada baş verib?***

-Bilirsiz, tarix boyu azərbaycanlılarla kürdlər iç-içə yaşayıb. Azərbaycanlılar harada qətlə yetirilibsə, təbii ki, kürdlər də o ərazilərdə qətlə yetirilib. Əsasən indiki Ermənistanda, eləcə də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağda, həmçinin İran ərazisində.

Bir neçə fakt deyim: Dərələzin Gümüşxana kəndində bizim qohumlar yaşayırdı. Onların böyük bir qismi indi Salyan rayonunun Qarabağlar kəndində məskunlaşıblar və adını çəkəcəyim şəxsin də bu gün nəvə, nəticəsi orada yaşayır. 1953-cü ildə onlar Ermənistandan zorla çıxarılanlardır. 1918-ci ildə ermənilər o kəndi tamamilə dağıdıb viran qoyublar. Hətta yaşlılar bu gün də danışır ki Fətullah kişini övladlarının gözü qabağında odun qalağının içinə qoyub yandırıblar. Digər bir fakt: 1990-cı ilin 26 iyun tarixində Vedibasar mahalında tanınmış ağsaqqal olan 74 yaşlı Şamo Süleymanovu da yaxınlarının gözü önündə odda yandırıblar. Səbəbsə erməni komitəsinə kömək etməməsi və Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətini dəstəkləməməsi idi. Sonra bizdə olan məlumata görə, Xocalıda qətlə yetirilən, əsir götürülən insanların arasında onlarla kürd ailəsi olub. Laçında, Kəlbəcərdə, Qubadlıda, Zəngilanda kürdlərin yaşadığı kəndlər də işğal edilib, onlar da qətlə yetirilib, onlar da əsr götürülüb və bu gün mənim ən yaxın qohumlarımdan erməni əsrliyində olanlar var, şəhid olanlar, əlil olanlar var.

***-Həmin zaman nə qədər kürd öldürülüb?***

-Dəqiq statistik məlumat yoxdur. Çünki, bu məsələlər araşdırılmayıb. 1920-ci ildə ermənilərin verdiyi bir açıqlamada 15 min kürdün öldürüldüyü deyilir. Ancaq bu çox kiçik bir rəqəmdir. Təxmini hesablama aparsaq və o zaman ki, əhalinin say tərkibinə baxsaq bundan dəfələrlə çox olduğunu görərik. Bir məsələ də deyim ki, ermənilər kürdləri təkcə indiki Ermənistan və Qarabağ ərazisində soyqırıma məruz qoymayıblar, həmçinin yuxarıda qeyd etdiyim kimi İran ərazisində də bu qətliamlar həyata keçirilib ki, bununla bağlı da tarixdə kifayət qədər faktlar olsa da hələ ki, tədqiqata cəlb olunmayıb.



İndi sual verə bilərsiz ki, niyə araşdırmırsız? Buna cavab olaraq deyim ki, təmsil etdiyim "Ronahi" Kürd Mədəniyyət Mərkəzi adından da göründüyü kimi mədəni fəaliyyətlə məşğuldur. Bu səbəbdən bizim bu məsələni təşkilat olaraq araşdırmamız bir qədər çətindir.

Ancaq buna baxmayaraq niyyətimiz var ki, bu məsələni geniş şəkildə araşdıraq. Bununla bağlı artıq bir sıra işlərə start verilib, layihələr hazırlanıb. Əgər qəbul olunarsa, bu istiqamətdə Azərbaycanın həm dövlət, həm də qeyri-dövlət təşkilatları ilə birgə fəaliyyət göstərəcəyik.

Bu layihədə Azərbaycanın əsas dövlət maraqları müdafiə olunacaq və bir sıra tarixi gerçəkliklər bir daha dünya ictimaiyyətinə, xüsusilə xaricdə fəaliyyət göstərən kürd diaspor təşkilatlarına çatdırılacaq.

***-Dünyanı bu soyqırıma nə dərəcədə inandıra bilibsiniz?***

-Dünya səviyyəsində hələki görə bildiyimiz işlər çox zəifdir. Təşkilat olaraq 2005-ci ildə MDB və Şərqi Avropa Kürdlərinin Moskvada keçirilən qurultayında və ondan əvvəl 1992-ci ildə Azərbaycan Respublikasının Rusiyadakı daimi Nümayəndəliyində Azərbaycanda olan bir sıra azsaylı xalqlarla birlikdə kürdlər də dünya ictimaiyyətinə müraciətlər ünvanlayaraq Ermənistanın işğalçılıq siyasətini kəskin şəkildə tənqid ediblər. 1992-ci ildə xüsusilə Ermənistanın Laçın rayonunu işğal edən zaman dünya ictimaiyyətinə yalan informasiyalar verməsini açıq ifşa ediblər. Ancaq bu işlər davamlı olmadığı üçün ortada ciddi bir nəticə yoxdur. Bundan əlavə şəxsi təşəbbüsləri ilə 2005-ci ildə Mədəniyyət mərkəzinin indiki sədri Fəxrəddin Paşayev və onunla bərabər digər Azərbaycan vətəndaşı olan 5 nəfər kürd Ermənistanı işğalçı dövlət olaraq Avropa məhkəməsinə verib və 2010-cu ildə məhkəmə doğru qərarı verərək Ermənistanın işğalçı dövlət olduğunu təsdiqləyib. O məhkəmədə vətəndaşlarımız təkcə Azərbaycanda yaşayan kürdlərinin məsələsini deyil, ümumilikdə, bir milyon qaçqının doğma yurd-yuvalarına qaytarılması məsələsini qoymuşdular. Mən hesab edirəm ki, bu, bütünlükdə Azərbaycan dövlətinin uğurudur və bu işlərin davamlı olması vacibdir. Bu işdə birgə fəaliyyət, birgə mübarizə ortaya qoymalıyıq.



***Ermənilərin öz ehtirafına görə 1897-ci ilin iyul ayının 25 dən 27 sinə kmi 3 gün ərzində 40 min, 1914-cü ilə kimi 600 min, 1920-ci ildə isə 17 min kürd ermənilər tərəfindən qətlə yetirilmişdir. Nofəl Ədalət***

***-Ermənilər kürdləri də belə qırdığı halda, Türkiyədə ermənilərlə kürdlər arasında sıx münasibət var. Hətta bu il Türkiyədə Xocalı soyqırımı ilə bağlı bir neçə tədbirdə ermənilərlə kürdlər birləşib təxribat yaradıblar. Bu hansı siyasətə xidmət edir?***

-Mən deməzdim ki, ermənilərlə kürdlər arasında sıx münasibət var. Məlum hadisə təbii ki, utancverici bir hadisədir. Burada Azərbaycan vətəndaşı olaraq mənim də, sizin də, o cümlədən bir sıra qurumların da günahı var. Biz bu günə qədər dünya ictimaiyyətinə ermənilərin kürdləri soyqırıma məruz qoyma faktını çatdırmamışıq. Hansısa kürd ermənilərin hər hansı bir aksiyasına dəstək verirsə, burada bizim günahımız daha böyükdür. Biz təbliğatımızı elə qurmalıyıq ki, həqiqət hamıya bəlli olsun. Onda heç kim çıxıb erməniyə dəstək verməyəcək.

Ermənilər dünyanın bir sıra yerlərində kürd faktorundan Azərbaycan əleyhinə istifadə edirlər. Bunun da kökü 1992-ci ildə ermənilərin Laçın rayonunu işğal etdikdən sonra oynadıqları bir oyundur ki, bu günə qədər ondan istifadə edirlər. Heç Azərbaycan ictimaiyyəti həmin oyundan doğru məlumatlı deyil. Mən bu məsələni açıqlamaq istəyirəm və xahiş edirəm dediyim faktlarla bağlı kiminsə şübhəsi varsa araşdırsın. Belə ki, 1992 ci ildə ermənilər Laçın rayonunu işğal edəndə buna bir don geyindirməyə çalışdılar və nə qədər üzücü olsa da dünya ictimaiyyətini qismən də olsa çaşdırdılar. Onlar Laçında guya kürdlərin üsyan qaldırdığını və dövlət yaratdıqlarını söylədilər. O zaman Rusiya telekanalları da ermənilərə bu işdə kömək etdi. Ermənistan bu iyrənc işlərindən bu gün də öz xeyirlərinə yararlanırlar. Hətta təəccüb doğuran tərəf budur ki, bəzən Azərbaycanda olan bəzi media nümayəndələri belə, bu saxta erməni təbliğatına inanırlar.

Əgər o erməniyə qoşulan bir –iki kürd bilsə ki, burda öldürülən minlərlə azərbaycanlı ilə yanaşı minlərlə kürd də öldürülüb, o bilsə ki, tarix boyu bu iki xalq arasında bir zərrə də olsun problem yaşanmayıb, o heç erməniyə dəstək verərmi? Biz birlikdə niyə İran Kürdüstanının lideri olmuş və şovinist fars rejimi tərəfindən edam edilən Qazi Məhəmmədin: "Azərbaycana yol kürdlərin cəsədi üzərindən keçir" fikrini, Böyük kürd şairi Əbdürrəhman Həjarın: "Azərbaycan və Kürd xalqı bir qılıncın iki ağzıdır, onları ayırmaq mümkünsüzdür" fikrini təbliğatımızın şüarına çevirməyək. Biz Azərbaycanda azsaylı xalqlara olan münasibəti olduğu kimi niyə təbliğ etməyək birlikdə. Mən inanıram ki, biz bunu etsək sabah o kürd gəncləri erməninin yanında deyil, Azərbaycanın yanında duracaq.

***-Ümumiyyətlə, kürd-erməni birliyini nə dərəcədə qəbul edirsiniz?***

-Ümumilikdə belə birliyin olduğuna inanmıram, varsa da qəbul etmirəm və kəskin şəkildə pisləyirəm.

Qardaşım, mən daima demişəm: ermənilər kürdlərin tarixi düşmənidir və bu düşmənçiliyin əsasını da ermənilər qoyub. Onların ideologiyasında kürd arzuolunmaz bir millətdir. Mən özüm filoloqam ixtisasca, bu üzdən ədəbiyyatla daha çox məşğul oluram. Bir şey heç vaxt diqqətimdən qaçmayıb, Azərbaycan ədəbiyyatında kifayət qədər müsbət kürd obrazları var. Bunu Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulu Türk və başqaları yaradıb. Amma erməni ədəbiyyatına baxsaq daima kürd aşağılanıb, düşmən obrazında verilib. Elə Məlik Akopyanın "İsqar" romanına baxsanız bunu açıq şəkildə görəcəksiniz. Ermənilər kürdə qarşı nifrətlərini milli ideologiya səviyyəsinə qaldırıblar. Bunu bilib gedib erməniyə dəstək verən kürd varsa, mənim dilim gəlməz ona kürd deməyə.

***-Bəs, kürd- azərbaycanlı birliyi özünü nə dərəcədə biruzə verir?***

-Laçında, Kəlbəcərdə, Zəngilanda, Qubadlıdan olan yüzlərlə şəhidimiz var ki, onların içində də kürdlər olmamış deyil. Buna misal olaraq deyim ki, təmsil etdiyim qurumun sədr müavini Namiq Nəsibovun atası Kamil Nəsibov kürddür. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olub və Azərbaycanın Milli Qəhrəmanıdır. Doğulduğum kənddən onlarla insan Azərbaycanımızın ərazi bütövlüyü uğrunda şəhid olub ki, onların sırasında döyüş şücayətinə görə Azərbaycan Bayrağı ordeni və digər fəxri adlara laiq görülənlər var. Bu faktlar Azərbaycanla kürd xalqının birliyini göstərir. Arzu edirəm birliyimiz və bərabərliyimiz əbədi olsun. İnşallah Azərbaycanın üçrəngli bayrağını Şuşaya, Laçına, Xankəndinə və digər işğal olunmuş rayonlarımıza birlikdə taxacağıq.

***Fuad Hüseynzadə***
***KarabakhİNFO.com***

# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

**Əvvəli ötən saylarımızda**

**ERMƏNİ XƏLİFƏSİNİN BÜTÜN KEŞİŞLƏRİLƏ BARIŞ ÜÇÜN MƏSCİDƏ GƏLMƏSİ**

Xəlifə belə ki, gördü ermənilərin arvad-uşağı ağlaşa-ağlaşa töküldülər onun qapısına, tez durub kilsə paltarını geyib böyük xaçı, kilsələrin böyük keşişləri hər biri bir İncili əlinə alıb, kilsə paltarları əyinlərində, keşişlərin əllərində qiymətli bayraq, neçə ruslar qabaqda papaqları ağacın başında, naçalnik onların dalında və ermənilərin nümayəndələri bunların dalınca musiqi çala-çala gəldilər meydana doldular. Xəlifə qabaqca, keşişlər əllərində xaç və İncil və bayraqlar bir parası ağlaya-ağlaya məscid həyətinə daxil oldular ki, bizi əfv edin, bağışlayın.

Həmin gün müsəlmanların əyan-əşrəfləri və böyük alimləri müəyyən bir işlə bağlı məscidə gəlmişdilər. Mən də (Mir Möhsün Nəvvab) bir vacib işlə əlaqədar oraya gəlmişdim. Məscidin həyətinə çatanda qonşuluqdakı qapı açıldı. Əvvəl ordan naçalnik çıxdı və mənə yaxınlaşıb əlimdən tutaraq «izvinite» sözünü deyib daxil oldu. Onun arxasınca gələn erməni xəlifəsi də mənim əlimi sıxaraq «bağışlayın» deyib içəri daxil oldular. Bu zaman cənab Hacı Molla Hüseyn qazi təşrif gətirdi. Onların ardınca müsəlmanlar da məscidə daxil olub xəlifə və keşişlərlə görüşdülər. Bundan sonra xəlifə barışıq nitqinə başladı. Bir qədər sonra məsciddən çıxdılar. Cənab qazi və müsəlmanların əyanları da onlarla erməni meydanına tərəf yollandılar. Yenə qabaqda naçalnik və ruslar musiqi sədası altında erməni məhəlləsinə doğru hərəkət edirdilər.

Aman (sülh) bayraqlarından birini mən (Nəvvab) alıb iki ay məsciddə saxladım. Sonra keşişlər gəlib həmin bayrağı geri istədilər. Cənab Nəcəfqulu ağanın vasitəsilə həmin keşişlərdən bir qəbz almaqla bərabər, həm də bayraqla birlikdə məscidin qarşısında Əfrasiyabın şəklini çəkdirdim. Bunu mən ermənilərin üstümüzə böhtan atmaması üçün əyani dəlil kimi çəkdirdim.

Ermənilərin bu növ siyasətinə və hiyləsinə inanmaq, eləcə də sülh məramına bel bağlamaq olmazdı. Çünki neçə dəfə bu qərar ilə məsciddə, kilsədə və qazinin evində bütün keşişlər, xəlifənin özü və erməni əyanları toplaşaraq çoxlu nitqlər söyləmiş, xütbələr oxumuş və dostluqdan danışmışlar. Amma axırı yenə mənasız olub. Belə ki, onlar, yəni ermənilər öz fitnə-fəsadlarından əl çəkməyərək xalqın rahatlığını kəsib onları qırğına düçar etmişlər.

Üç gün bundan sonra cənab Şeyxülislam Şuşa şəhərinə təşrif gətirdi. Şəhər əhalisi onu böyük ehtiramla qarşıladı. Şeyxülislamı üç yüz atlı, hörmətli şəxslər, alimlər, erməni keşişləri və xəlifəsi, eləcə də erməni böyükləri faytonlarda, otuz nəfər atlı kazaklar sursatları ilə birlikdə müşayiət edirdilər. Onlar şəhərə daxil olaraq cənab qazinin evində qərar tutdular.



**Mir Möhsün Nəvvab**

Elə ki, sabah oldu, yenə alimlər, seyidlər, əyan-əşrəflər, ermənilərin xəlifəsi, keşişləri və əyanları cənab Şeyxülislamın hüzuruna gələrək xoş gəldin etdilər. Bundan sonra Şeyxülislam buyurdu ki, ey erməni və müsəlman camaatı! Bir para başqa vilayətlərdə fitnə-fəsad işləri vəba xəstəliyi kimi yayılarkən məclislərdə və yığıncaqlarda mərifət əhli Şuşa qalasının erməni və müsəlman əhlinin mehriban dolanmağını misal gətirərək iğtişaş salanları məzəmmət edirdilər. Onlar Avropanın Paris şəhərində olan xoş davranışı Qafqaz şəhərləri içərisində Şuşa əhalisinin mehriban münasibətləri ilə müqayisə edirdilər.

Mənə məlumdur ki, siz iki tayfa, yəni erməni və müsəlmanlar keçmiş zamanlarda qardaş kimi dolanmısınız. Hətta Məlik Şahnəzərin qızı Hurizad xanımı mərhum İbrahim xan özünə halal övrət edib, qohum olublar. İndi sizdən sual edirəm: bu fitnə-fəsada nə bais olur?

Aranızda din-məzhəb davası, namus məsələsi yoxdur. Bəs nə üçün bir neçə şeytan cildinə girmiş insanların fitnə-fəsadına uyaraq bu qədər qanların tökülməsinə, malların tələf olub, mülklərin dağılmasına və yanmasına bais olursunuz? Qiyamət günü Allah-təalanın qarşısında bu bəd əməlləriniz üçün cavab verəcəyinizi unudursunuz? O, tezliklə zalım ilə məzlum arasında ədalətlə divan edəndir. Tövbə edib Allah yoluna qayıdın. Bir də belə fitnə-fəsadlar törətməyin. Fitnə-fəsad törətməyə çalışan bir para adamların sözünə qulaq asmayın. Onlar öz cahillikləri ilə sizin rahatlığınızı əlinizdən alıb, öz fitnələri ilə sizi qırğına verirlər. Bununla bir məqsədə və ali mərtəbəyə nail olmaq qeyri-mümkündür.

Xülasə, o biri gün səhər tezdən cənabi-Şeyxülislam məscidə təşrif gətirdi. Yenə də erməni və müsəlmanlar məscidin ətrafına toplaşdılar. Şeyx həzrətləri burda da çıxış edərək onların bütün fitnə-fəsadlara son qoymalarını və mehriban dolanmalarını nəsihət etdi. Hərbi qubernator da camaata elan etdi ki, sizin aranızda gedən vuruşlara son qoymaq və hər iki tayfa arasında (erməni və müsəlman) sülhü bərqərar etmək üçün dövlət məni buraya qubernator təyin etmişdir. Hər hansı bir fitnə-fəsadda mən məzlumun tərəfində olub zalımı tənbeh edəcəyəm. Buna mənim səlahiyyətim var.

Burdakı çıxışlardan sonra onların hamısı erməni kilsəsinin yanına gəldilər. Burda da erməni xəlifəsi və qubernator çıxış edib, hamını fitnə-fəsadlardan əl çəkib əmin-amanlığı təmin etməyə çağırdılar.

Din xadimləri və qubernator bu iki tayfa arasında sülh yaratmağa çalışdıqları vaxt xəbər gəldi ki Vəng tərəfdə ermənilər toplaşıb müsəlman köçərilərinin yolunu kəsiblər. Belə ki, min nəfərəcən əlsiz-ayaqsız övrət-uşaq, qoca kişilər və onların heyvanları yığılıb o tərəfdə meşədə qalıblar.

Bu xəbər şəhərə çatan kimi, dərhal Ağdama və Bağlar əhlinə müxtəlif kağızlar yazıb göndərdilər. Dərhal altı yüzə qədər silahlı atlılar cəm oldular və üz qoydular Vəng tərəfə. Ermənilərin səngərlərinə bir güllə atımlıq məsafədə düşüb dəstələr təşkil etdilər. Ermənilər xəbərdar olan kimi qorxuya düşdülər




və bir neçə ermənini onların hüzuruna göndərdilər ki, müsəlmanların gəlişlərinin səbəbini öyrənsinlər. Atlılar həmin ermənilərə bildirdilər ki, gəlmişik köçərilərin yollarını kəsənlərə layiqli cəza verək ki, bundan sonra bir də belə iş görməsinlər.

Ermənilər dedilər ki, biz onların yolunu kəsməmişik. Ola bilsin ki, köç tayfası bizim ermənilərlə dava ediblər və bunun nəticəsində bir-iki adam ölübdür. Xülasə, atlılar köçərilərin yolunu açdılar, onlar sərbəst gəlib oradan keçərək öz oymaqlarına tərəf yollandılar.

Həmin günün sabahı xəbər gətirdilər ki, erməni tayfası Əsgəran səngərlərinə girərək yolla gəlib-gedəni qəflətən güllə ilə vurub öldürür, yaxud yaralayırdılar. Həmin saat, yəni xəbər gələn kimi qubernatorun əmri ilə bir dəstə kazak Abbas bəy Talıb bəy oğlunu götürüb Əsgərana tərəf yollandılar. Kazaklar Abbas bəy Talıb bəy oğlu ilə bərabər, erməniləri həmin səngərlərdən çıxarıb dağıtdılar. Ermənilər isə Əsgəran səngərlərindən çıxarıldıqdan sonra onlar Xanabad kəndinə hücum edirlər. Onlar kənddə Həsənağa Süleyman xan oğlunun mülkünü, böyük və gözəl imarətlərini darmadağın edərək, mal-dövlətini talan etmişlər.

Bundan sonra ermənilər Badara kəndinə hücum çəkirlər. Onlar həkim Mirzə Allahqulu oğlunun evini hər tərəfdən mühasirəyə alaraq od vururlar. Bu zaman Mirzə Allahqulu oğlu öz övladları Cahangir bəy və Kərim bəylə bu əhvalatdan xəbərsiz içəridə işlə məşğul idilər. Ermənilərin bir qismi isə içəri doluşaraq Mirzə Allahqulu oğlunu və övladlarını, eləcə də nökərlərini övrət-uşaqları ilə birlikdə qətlə yetirib mal-dövlətlərini talan etdilər.

**ŞUŞA ŞƏHƏRİNİN ƏTRAFINDAKI KƏNDLƏRDƏ BAŞ VERƏN ƏHVALATLAR**

Ermənilərin yuxarıda deyilən vəhşiliklərindən xəbər tutan kürdlər dərhal silahlanaraq bir neçə yüz atlı ilə üz qoydular Minkənd, Xınzirək və başqa kəndlərin üstünə. Onlar bu kəndləri darmadağın etdilər. Ermənilərdən bir qismi öldü, bir qismi qaçıb canını qurtardı, başqa bir qismi isə tüfənglərini atıb təslim oldular.

O günün sabahısı mənim (Mir Möhsün Nəvvabın) yanıma bir cavan kürd oğlanı gəlib xəbər verdi ki, biz müsəlmanlar cəm olub birdən yüz evdən ibarət olan Hərrad kəndinin üstünə hücum çəkdik. Bizim hücumun qarşısında tab gətirməyən ermənilər əlacsız qalıb tüfəng və patrondaşlarını atdılar və acizanə şəkildə təslim oldular. Oğlan dedi ki, indi Qaladərəsinin üstünə hücum çəkmək məqsədi ilə hazırlıq görürük. Həmin oğlan bacardığı qədər boş gilizlər alıb apardı və dedi ki, orada yaxşı patron qayıran var. Verəcəyəm bu gilizləri doldursun, çünki lazım olacaq.

Həmin günlər cənab Şeyxülislam buyurdu ki, erməni tayfasından bir neçə mötəbər adam onun hüzuruna gəlsinlər. Həmin gün müsəlmanlar da oraya toplaşmışdı. Onlar gəldikdən sonra Şeyxülislam buyurdu ki, inşallah, sabah mən getməliyəm. Yenə də hər iki tayfaya nəsihət edirəm ki, burada əmin-amamlığı pozmayaraq, əvvəlki kimi yenə də biri-birinizə ehtiram ilə yanaşaraq qardaş kimi dolanasınız.

**Ardı var**

***Tahir Süleyman***

# 1918- ci ildə birləşmiş bolşevik-daşnak silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi Soyqırımı

**Birinci yazı.** Bakıda 1918-ci il mart hadisələri.

1917 ci il Fevral inqilabı nəticəsində müstəmləkə zəncirindən azad olmuş Azərbaycan xalqının millli azadlıq arzularını oktyabr çevrilişi puça çıxartdı. Çevriliş yolu ilə hakimiyyəti qəsb etmiş,demokratiya,millətlərin öz müqəddəratını təyin etmək hüququ və s.şüarlarla maskalanmış V.İ.Leninin yeni,daha mənhus və daha qəddar imperiya yaratmağı, çarizm əsarətindən yenicə canını xilas etmiş,müstəqil dövlət yaratmağa cəhd edən xalqların,o cümlədən azərbaycanlıların milli istiqlal hərəkatını hələ beşikdə ikən boğmağı qarşısına məqsəd qoydu. Buna nail olmaq üçün hər vasitədən istifadə edildi, yerlərə, xüsusən ucqarlara bolşevik emissarları ezam edildi.

Bolşeviklərin ilk növbədə ələ keçirmək istədikləri region Azərbaycan,xüsusən Bakı idi.V.İ.Lenin hər vəclə Bakı neftini əldən vermək istəmirdi. Bu məqsədlə o,Azərbaycan xalqının qanına susamış daşnak S.Şaumyanı Qafqaza Fövqəladə komissar təyin etdi. Azərbaycanda heç bir sosial bazaya malik olmayan,demokratik seçki yolu ilə əli hakimiyyətə çatmayan bolşeviklər əllərini milli azadlıq mübarizəsinə qalxmış Azərbaycan xalqının qanına batırıb hakimiyyətə gəlmək istəyirdilər. Ona görə də S.Şaumyan tərəfindən Bakıda yaradılmış Bakı Sovetinə Sovet Rusiyasından hər cür yardım göstərilirdi. Yerli əhali arasında heç bir nüfuza malik olmayan Bakı Soveti isə əsasən qeyri-azərbaycanlılardan ibarət olub. Azərbaycan xalqına zidd siyasət aparırdı. Sovetin İcraiyyə Komitəsinin 90%-i "bolşevikləşmiş" ermənilərdən ibarət idi.

Bu dövrdə bolşeviklərin hakimiyyəti ələ keçirmək yolunda əsas rəqibi milli ideyanın daşıyıcısı olan "Müsavat" partiyası idi.1917-ci il Fevral inqilabından sonra aktiv fəaliyyətə keçən Musavat genişlənən mili-azadlıq hərəkatına rəhbərlik edirdi.Partiya təkcə azərbaycanlı ziyalılar arasında deyil.azərbaycanlı fəhlələr arasında da böyük nüfuza malik idi.1917-ci il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə Musavat 9617, eserlər 6305,bolşeviklər 3823, menşeviklər 687,daşnaklar isə 528 səs topladılar. Bakının neft-mədən rayonlarında (Zabrat rayonu istisna olmaqla) keçirilmiş səsvermədə Musavat partiyası qalib gəldi. ("Kaspiy" 25 oktyabr 1917). Zaqafqaziyada,o cümlədən Azərbaycanda Ümumrusiya Müəssislər Məclisinə keçirilən 1917-ci il 26 noyabr seçkilərində də Musavat partiyası xeyli səs topladı. Zaqafqaziya dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, musavatçılar və daşnaklar ümumilikdə səslərin 73%-ni qazandılar (L.M.Spirin.İtoqi vıborov vo Vserossiyskoye Uçreditelnoye Sobraniye po Azerbaydjanu // İzv.AN Azerb.Seriya istorii,filosofii i prava,1988 N2,s.96).Musavat partiyasının böyük sosial bazaya malik olduğunu S.Şaumyan özüdə etiraf edirdi:"İnqilabın gedişində formalaşan,yaranan "Musavat" öncə ən zəif partiya idi.Heç bir təşkilata,siyasi ənənəyə malik olmayan bir partiya ikinci ilin əvvəlləində(1918-ci ilin əvvəllərində-N.H.) Zaqafqaziyada ən güclü siyasi partiyaya çevrilmişdi". (S.Şaumyan.İzbranniye proizvedeniya.M.1978.t.2.s.291)

Deməli, Bakı Sovetinə öz təhlükəsizliyini təmin etmək üçün Musavat partiyasını aradan götürmək lazım idi.Bu fakt 80-ci illərin sonlarına qədər Sovet tarixşünaslığında öz əksini tapan "mart silahlı qiyamı Musavat partiyasının geniş xalq kütlələri arasında Bakı Sovetinin durmadan artan nüfuzundan qorxması, Bakı Sovetini məhz buna görə də devirmək istədiyindən doğmuşdu" konsepsiyasının əsassız və yalan olduğunu göstərir.



Bolşeviklərin bütün cəhdlərinə baxmayaraq onlar Bakının idarə olunmasını bütövlükdə ələ keçirə bilmədilər. Buna görə də onlar hakimiyyət məsələsini qəti olaraq həll etmək üçün Bakıda hərbi cəhətdən möhkəmlənməyə başladılar. Bu məqsədlə 1917-ci ilin dekabrında Qafqaz Ordusunun 2-ci diyar qurultayında milliyətcə erməni olan Q.Korqanovun başçılığı ilə yaradılmış Hərbi İnqilab Komitəsi Tiflisdən Bakıya gətirildi.Həmçinin Qafqaz və Yaxın Şərq cəbhələrindən qayıtmış və Zaqafqaziya dəmir yollarının işləməməsi üzündən Bakıda ilişib qalmış keçmiş çar ordusunun əsgərlərini (onların təqribən 8 min nəfəri ermənilərdən ibarət idi-N.H.) Bakıda saxladılar. Nə pulu,nə yaşamağa yeri, nədə işi olmayan bu adamlar böyük həvəslə Bakı Sovetinin yaratdığı hərbi dəstələrə yazırdılar. Həm də onları bu dəstələrə böyük həvəslə götürürdülər. Eyni zamanda "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası ilə də ittifaq yaradıldı. Daşnakların yaxşı silahlandırılmış 4 min nəfərlik hərbi qüvvəsi də Bakıda cəmləşmişdi. Nəticədə martın əvvəllərinə yaxın düşmən Bakıda 20 minlik silahlı qüvvə toplamışdı. B.Avakyanın komandanlıq etdiyi bu orduda komanda vəzifələrini başlıca olaraq daşnaklar və daşnak əhvalruhiyyəli zabitlər tutmuşdular. Hətta daşnak Z.Avetisyan Sovet qoşunlarını özündə birləşdirən 1-ci Qafqaz korpusunun qərargah rəisi,daşnak Qazarov isə həmin korpusun komandiri təyin edilmişdi.Qızıl Ordunun 4 batalyonunu birləşdirən 3-cü briqadaya daşnak Hamazasp komandirlik edirdi. Suren Şaumyan yazırdı ki,"Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısında idi.Əslində həmin ordu Erməni Milli Şurasına tabe idi" (Suren Şaumyan. Bakinskaya Kommuna. Baku 1927, s.29). Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı. Həmçinin, Şamaxı və Muğanda ehtiyat rus-molokan silahlı dəstələri də yaradılmışdı.Bu hadisələrin fəal iştirakçısı olan "bolşevik"



N.Əsriyants sonralar öz xatirələrində yazırdı: "1918-ci il fevralında T.Əmirov bizi yığıb bildirdi ki,S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik.S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq,bu xəbərdarlıq siqnalından sonra biz hücum edib "Musavat"ın qərərgahını tutmalı idik və belə də oldu". (ARDSPİHA,f.276,siy.2,iş 20,v.76)

1917-ci ildə Erməni Milli Şurası erməni əhaliyə müraciət edərək onları milli ordunun sıralarına yazılmağa, maddi imkanı yaxşı olan ermənləri isə pul verməyə tövsiyə etmişdi.

Sovetdə olan daşnaklar-Saakyan, Arakelyan və başqaları Bakı Sovetinə və onun yaratdığı orduya müsəlmanların qəbul edilməsinə hər vasitə ilə əngəl törədirdilər. (Mart hadiseyi-ələmiyyəsinin müxtəsər tarixçəsi. "Azərbaycan" qəzeti. 31 mart 1919.) Məqsəd azərbaycanlıları müqavimətsiz qırmaq üçün şərait yaratmaq idi. Azərbaycan "dənizdən-dənizə" olan "Böyük Ermənistan" yaratmaq işində daşnakların qarşısında böyük manеə idi.Çünki onlar Azərbaycan ərazisini də xülyavi "Böyük Ermənistan"ın tərkibinə daxil etmişdilər. Bu məqsədə isə ancaq Azərbaycan xalqının mövcudiyyətinə son qoyulduqdan sonra çata bilərdilər.

